# QƏHRƏMANLIQ İZİ İLƏ

## *Şəhid Qoşqar Qasımovun Əziz Xatirəsinə*



44 günlük Vətən müharibəsi Azərbaycanın hər bir vətəndaşının yaddaşına qanla, qürurla yazıldı. Müharibə dönəmində hər gün bir yeni igidin adı xalqın yaddaşına həkk olunurdu. Onlardan biri - Beyləqan rayonunun Aşağı Çəmənli kəndinin mərd oğlu, bu gün də ürəklərdə yaşayan gizir rütbəli şəhid Qoşqar Atakişi oğlu Qasımovdur.

Qoşqar Qasımov 16 yanvar 1995-ci ildə sadə bir ailədə dünyaya göz açmışdı. Uşaqlıqdan mərdliyi, dəliqanlı təbiəti və vətənə olan sevgisi ilə seçilirdi. Vətən sevgisi dərslərindən daha çox olan Qoşqar orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandı. 2013-cü ildə Beyləqan Hərbi Komissarlığından hərbi xidmətə çağırıldı. Tovuzda hərbi xidmətini uğurla başa vurduqdan sonra, vətənə bağlılığı onu yenidən forma geyinməyə sövq etdi.

2015-ci ildən etibarən üç aylıq gizirlik kursunu bitirdikdən sonra Naxçıvanda N saylı hərbi hissədə xidmətə başlamışdı. Disiplinli, cəsur və dəqiq qərarları ilə silahdaşlarının hörmətini qazanan Qoşqarın həyat fəlsəfəsi qısaca belə idi: "Əgər Vətən səni çağırırsa, getməmək olmaz!"

Bu çağırışın cavabı isə 2020-ci ilin sentyabrında verildi. Qoşqar Qasımov müharibənin ilk günlərindən ön cəbhəyə yollandı. Anası Gülgəz xanım deyir ki, sonuncu dəfə Qoşqarı yola salanda bizimlə çox nikbin, şən ayrıldı. Ondan müharibə olacağını soruşanda isə sadəcə bizdən sonra gələn nəsillər bizimlə fəxr edəcək dedi. Müharibə zamanı telefon danışıqlarında isə, "özünü qoru, səni sağ-salamat gözləyirəm" deyəndə, bura torpaqlarımızı qorumaq üçün gəlmişəm, özümü yox deyirmiş. Qoşqar Cəbrayıl və Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edir, onun göstərdiyi şücaət, qorxmadan irəliləməsi, yaralı döyüş yoldaşlarını təhlükədən çıxarması silahdaşları tərəfindən bu gün də qürurla danışılır.

25 oktyabr 2020-ci il tarixində Aşağı Çəmənlidən şəhid var dedilər. Qorxaraq qardaşıma zəng edib kim olduğunu soruşanda ağlaya-ağlaya Qoşqarı gətirirlər dedi. Bir anlıq hər gün səsi məktəbi götürən, dərslərində nizamsız olan, hamının dəlisov, amma eyni zamanda sevimlisi olan Qoşqar canlandı.

Burada Məmmədyar Ziyadoğlunun qəhrəmana həsr etdiyi şeirindən bir parçanı yada salıram:

O dağların etibarı olmadı,
Saxlamadı, sağ-salamat Qoşqarı
Özü şəhid oldu, yaşadı adı,
Əbədi yaşatdı həyat Qoşqarı.

Bir arzutək qaldı bəylik xonçası,
Qol qaldırıb oynamadı anası,
Bilmir ki, dəfn olub bəylik libası,
Heyy gözləyir bir toy, büsat Qoşqarı.

Heyif... Qoşqar Qubadlı istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdı. Həmin gün Çəmənli kənd qəbirstanlığında özünə aldığı bəylik geyimi ilə bir yerdə, ən ali məqamı qazanan Şəhid Qoşqarı dəfn etdik. Biz onu torpağa, o da canını bizim azadlığımıza bağışladı.



*Adgül ASLANOVA,*
*ADPU, Azərbaycan dilçiliyi kafedrası*